Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı görülən tədbirlər barədə məlumat verilməsi

# İSTİFADƏÇİ BƏLƏDÇİSİ

BAKI-2015

Daxili İşlər Nazirliyinin veb saytından yol hərəkəti qaydalarının pozulması ilə əlaqədar cərimələr və cərimə balları barədə məlumat əldə edilmə prosesini nəzərdən keçirək. Aşağıdakı şəkildə xidmətin giriş pəncərəsi göstərilmişdir:




Bu səhifədə yol hərəkəti qaydalarının pozulması ilə əlaqədar cərimələr və cərimə balları barədə məlumat əldə etmək mümkündür. Bunun üçün iki variant mövcuddur:

1. Saytda qeydiyyatdan keçmədən sürücülük vəsiqəsinin nömrəsinə, vətəndaşın doğulduğu tarix və sürücülük vəsiqəsinin son etibarlılıq tarixinə əsasən cərimələr barədə məlumatəldə etmək ("Qeydiyyatsız" variant).
2. Saytda qeydiyyatdan keçərək məlumat əldə etmək ("Qeydiyyatlı" variant).

**Qeydiyyatsız.**Birinci variantda "Qeydiyyatsız" bölməsi seçilməlidir. Qeyd edək ki, ilk dəfə bu səhifəni açdıqda avtomatik olaraq aşağıdakı forma açılır.




Bu səhifədə uyğun sahələrdə vəsiqənin seriya nömrəsini, vəsiqə sahibinin doğulduğu tarixi və vəsiqənin son etibarlılıq tarixini yazıb



“Yoxla” düyməsini sıxmaqla şəxsin cərimə ballarını və əgər cərimə olunubsa, şəxsin soyadı, adı, ata adı, cərimə protokolunun nömrəsi, cərimə məbləği və protokolun tarixini əks etdirən yeni səhifə açılır.




**Qeydiyyatlı.**“Qeydiyyatlı” variantını seçdikdə “İstifadəçi adı” və “Şifrə” yazılması üçün sahələr mövcud olan yeni səhifə açılır.




Əgər şəxs saytda bir dəfə qeydiyyatdan keçibsə, onda bu hissədə öz istifadəçi adı və şifrəsini yazıb “Daxil ol” düyməsini basmaqla




hesabına daxil ola və




öz cərimə balları, cərimələri barədə məlumatları əldə edə bilər.

Qeyd edək ki, şəxsin veb saytda hesabı olmadıqda, "Qeydiyyatlı" bölməsindən istifadə etmək üçün əvvəlcə qeydiyyatdan keçməlidir. Qeydiyyat prosesinə başlamaq üçün "Qeydiyyatdan keç" düyməsindən istifadə olunur.




Bu düyməni sıxdıqda qeydiyyat məlumatlarının yazılması üçün yeni səhifə açılır. Aşağıdakı səhifədə məlumatları daxil edib




"Əlavə et" düyməsini sıxmaq lazımdır. Qeyd edək ki, vəsiqənin seriya nömrəsi yazılarkən onun simvolları arasında boşluq olmamalıdır. Şifrədə isə minimum simvol

sayı altı, ən azı bir kiçik, bir böyük hərf və rəqəm də olmalıdır. Qeydiyyat pəncərəsindəki bütün məlumatlar düzgün olduğu halda, "Əlavə et" düyməsini sıxdıqda məlumatlar bazaya əlavə olunur və qeydiyyatın müvəffəqiyyətlə başa çatması barədə xəbərdarlıq görünür. Bununla da veb saytda qeydiyyatdan keçmiş olursunuz. Qeydiyyatdan keçərkən yazdığınız istifadəçi adı və şifrəni unutmayın. Bu yenidən öz hesabınıza daxil olmaq üçün lazım olacaq. Saytda qeydiyyatdan keçməyin üstün cəhəti odur ki, sürücülük vəsiqəsi məlumatları bir dəfə yazılır və sistemdə saxlanılır. Hər dəfə cərimələr barədə məlumat əldə etmək istədikdə vəsiqə məlumatlarının yenidən yazılmasına ehtiyac qalmır, istifadəçinin öz hesabına daxil olması kifayət edir.

Şifrənizi unutduqda onu bərpa etmək mümkündür. Bu halda "Qeydiyyatlı" bölməsində "Şifrəni unutdum" linkini sıxmaq lazımdır.




Açılan yeni səhifədə sürücülük vəsiqəsinin seriya nömrəsi və qeydiyyatdan keçərkən istifadə etdiyiniz elektron poçt ünvanının yazılması üçün sahələr görünür.




Bu hissədə müvafiq sahələri lazımi məlumatla doldurduqdan sonra "Göndər" düyməsini sıxmaq lazımdır. Daxil etdiyiniz məlumatlar düzgün olduğu halda səhifədə elektron poçtunuza məktub göndərilməsi barədə xəbərdarlıq əks olunacaq və poçta şifrənin bərpası üçün lazımi təlimat göndəriləcək.




Bundan sonra öz poçtunuza daxil olduqda şifrənin bərpası ilə əlaqədar gəlmiş məktubu görə bilərsiniz.




Qeyd edək ki, hər kəsdə elektron poçt ünvanının yerləşdiyi domen eyni olmadığından poçtun görünüşü də şəkildəkindən fərqli ola bilər. Bu məktubu açdıqda



istifadəçi adınız və sistemin avtomatik generasiya etdiyi yeni şifrənizi görəcəksiniz. Bu məlumatlardan istifadə edib saytdakı hesabınıza yenidən daxil ola bilərsiniz. Şifrənizi dəyişmək istəsəniz, öz hesabınıza daxil olduqdan sonra “Şifrəni dəyiş”




düyməsindən istifadə edərək şifrəni dəyişə bilərsiniz. Bunun üçün açılan yeni səhifədə birinci sətirdə cari şifrəni, ikinci və üçüncü sətirlərdə isə yeni təyin etmək istədiyiniz şifrəni yazıb “Şifrəni dəyişdir” düyməsini sıxın.




Bu zaman məlumatlar düzgün olduğu halda şifrənin dəyişməsi barədə xəbərdarlıq görəcəksiniz.

